◆ **Rövşən Xasayoğlu**

## Tutduğun Yola Bir Bax

*İranda azadlıq mübarizəsinə qatıldığı üçün*
*işgəncə görən Atilla Ərfəiyə itaf edirəm*

Atilla susdu durdu, suallar Fars dilində
Dedi:"Dilim Türk dili, farsça sorma elimdə.

Fars dilində danışmam, bunu qoy aləm bilə,
Söyləməm özgə dildə nə söz, nə də ki cümlə."

Əyilmədi yadalara, Türklük oldu dayağı,
Qırılsa da qolları, qabırğası, ayağı.

Göstərdi o yadelli yağılara bir daha,
Bu torpaqlar əzəldən Türk yurdu, Türkə oba.

Sənin onündə duran Atilla Ərfə idi,
Türkcə danış deməsi yenilməz zəfər idi.

Baxma ki, yeni girmiş, o on altı yaşına,
Farsın burnunu sürtdü, torpağına daşına.

İran'da Türk dilində məktəb yoxsa da ana
Öz dilini öyrətmiş o doğma balasına.

Bu dili damla-damla südüylə vermiş ona
Ana dilin hopturmuş yaddaşına, qanına.

Türk dilin öldürməyə kimsənin yetməz gücü,
Türk dilində danışır dünyanın dördbir ucu.

Gözlərini yumaraq  günəşi yoxmu sandın?
Türklüyü yox sayaraq bil ki, özünü dandın.

Susdu heç danışmadı, qırıldı kemikleri…
Dözüb əziyyətlərə, qızdırdı köpəkləri.

Əyilmədi Atilla, önündə əydi səni,
Türk əyilməz kimsəyə, ağıldan kəm sərsəri.

İran deyə adlanan torpaqlar Səlçukludur,
Tariximə hörmət et, ədəb-ərkan bil budur.

Sənintək xor görmədik başqa dili, a cani
Farsca əsər yaratdı şeyx Nizami, Xaqani.

Türkə düşmən kəsilmən tarım çəkir əsəbi,
Din qardaşı söyləyib hallandırma məshəbi.

İslam olduğun belə şübhə doğurur düzü,
Yavura arxa çıxıb, arxadan vurdun bizi.

Nə olduğun bilinməz, şeytanın kor bəyçisi,
Tutduğun yola bir bax, yoxluğun xəbərçisi.